№ 230.-
21 oktyabr 2023-cü il, şənbə
Xalq qəzeti

# Türk dünyası poeziya çələngi

**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda "Türk dünyası info" İctimai Birliyinin layihələri çərçivəsində nəşr olunmuş 6 poeziya antologiyasının təqdimatı keçirilib.**




Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli mərasimi giriş sözü ilə açaraq layihənin rəhbəri, şair-publisist Dəyanət Osmanlının tərtibatında işıq üzü görən almanaxların böyük məsuliyyətlə ərsəyə gətirildiyini, ədəbi-mədəni mühitimizin təbliğatı baxımından mühüm önəm daşıdığını bildirdi.

Dəyanət Osmanlı QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə buraxılmış toplular üzərində aparılan iş, şeirlərin mövzusu və ideya yönümü barədə ətraflı məlumat verdi. Bakı Dövlət Universitetinin müəllimi Knyaz Aslan, filologiya elmləri doktoru Bədirxan Əhmədov və başqaları "Türk dünyasında Azərbaycan", "Zəfər duyğuları", "Çağdaş bütöv Azərbaycan" və s. adlarla buraxılan kitabların bədii-estetik xüsusiyyətlərini diqqətə çatdırdılar.

***P.ƏMİRCANOV***
***XQ***